# «Həyatla oyun» teatr tamaşası

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 7 iyul 2011-ci il tarixli Sərəncamı ilə təsdiq



edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının 6.1.1-ci bəndində zərərli vərdişlərin profilaktikası ilə bağlı teatr tamaşalarının hazırlanması və regionlarda nümayiş etdirilməsi bir sıra mərkəzi və yerli icra hakimiyyəti orqanlarının üzərinə vəzifə kimi qoyulmuşdur.

Gənclərin bu sahədə maarifləndirilməsi məqsədilə Gənclər və İdman Nazirliyi tərəfindən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası ilə birlikdə «Həyatla oyun» adlı teatr tamaşası hazırlanmışdır. Tamaşanın Qəbələ rayonunda nümayişi 28 avqustda Qəbələ Mədəniyyət Mərkəzində baş tutmuşdur. Tamaşaya rayonun müxtəlif idarə və müəssisələrində çalışan yeniyetmə və gənclər, ictimaiyyət nümayəndələri, həmçinin orta məktəblərin yuxarı sinif şagirdləri dəvət almışdılar.

Tamaşanın nümayişindən öncə rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək teatr tamaşasının nümayiş etdirilməsində məqsədin bəşəriyyət üçün faciəyə çevrilən narkomaniya və digər zərərli vərdişlərə gəncləri «yox» deməyə səsləmək, onların bu sahədə məlumatlarını artırmaqdan ibarət olduğunu bildirdi və bu sahəyə cənab Prezident İlham Əliyevin daim diqqət yetirdiyini tamaşaçıların nəzərinə çatdırdı. Daha sonra teatrın direktoru və bədii rəhbəri İntiqam Soltan tamaşaçılara zərərli vərdişlərin törətdiyi fəsadlar barədə geniş məlumat vermiş, gələcəyimiz olan gənclərin ruhən və fiziki cəhətdən sağlam həyat, sağlam düşüncə tərzi seçmələri üçün valideyinlərə daha məsuliyyətli olmalarını tövsiyyə etmişdir.

Real həyatda baş verən hadisələr əsasında hazırlanmış "Həyatla oyun" tamaşasının əsas məqsədi insanları bəşəriyyətin ən böyük bəlası olan narkomaniyaya qarşı mübarizəyə səsləməkdir.

Rejissor İntiqam Soltanın səhnələşdirdiyi və Bakı Uşaq Teatrının kollektivinin oynadığı tamaşa qəbələlilər tərəfindən maraqla və alqışlarla qarşılanmışdır.

**Mübariz AĞAYEV.**
**Foto S. Umuyevindir.**

# Doğma ölkəmizdə

## Əhalinin sosial müdafiəsi gücləndirilir

Dövlət Sosial Müdafiə Fondundan verilən məlumata görə 2013-cü ilin iyul ayının 1-i vəziyyətinə DSMF sistemində 1.272,6 min nəfər pensiyaçı olub. Onlar ölkə əhalisinin 13,7 faizini təşkil edib.

Pensiyaçıların 62,4 faizi yaşa, 27 faizi əlilliyə, 10,6 faizi isə ailə başçısını itirməyə görə pensiya alıb. Pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artaraq 153,3 manat olmuşdur. Ümumilikdə bu ilin yanvar iyul aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə 1 milyard 219 milyon manat, yaxud əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz çox vəsait yönəldilib. Pensiya xərcləri 3,7 faiz artaraq 1 milyard 190,6 milyon manat təşkil edib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin əhalinin müavinəti və pensiyalarının artımı haqqında bu günlərdə imzaladığı fərman və sərəncamlar əsasında bu göstəricilər xüsusi olaraq daha da yüksələcəkdir.

## Müasir aqrar-sənaye kompleksi yaradılır

Son on ilin statistik rəqəmləri göstərir ki, aqrar sektora göstərilən dövlət dəstəyi ölkədə durmadan yüksəlir. Artıq ölkənin müasir aqrar-sənaye kompleksi yaradılır. Ötən bir neçə ildə regionlarda dəyəri milyon manatlarla ölçülən və ümumi tutumu 100,5 min ton olan 28 soyuducu anbar və ümumi tutumu 267 min ton olan 17 taxıl anbarı kompleksləri tikilmişdir. Bununla bərabər «Hər kəndliyə bir anbar» proqramı çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi və «Aqrolizinq» ASC-nin xətti ilə ölkəmizə 20 ton tutumu olan soyuducu anbarlar gətirilərək 10 il müddətində fermerlərə lizinqə verilib.

## Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi davam edir

Bakı—Tbilisi—Qars (BTQ) dəmir yolunun inşası işləri 4 mərhələdə aparılır. Birinci mərhələ olan Marabda—Tetriskaro sahəsinin uzunluğu 29,2 kilometrdir. Bu mərhələdə işlər başa çatmaq üzrədir.

İkinci mərhələ olan Tetriskaro-Salka sahəsinin uzunluğu 49,7 kilometrdir. Bu sahənin 40 kilometrliyində yolun torpaq yatağında, 113 süni qurğunun 111-də işlər başa çatdırılıb, 33,5 kilometrliyində üst quruluşu elementləri (rels, şpal və s) dəyişdirilib. Sahədə həmsinin 64,7 km optik kabel qoyulub, rabitə, işarəvermə, mərkəzləşmə və bloklama qurğuları stansiyaya gətirilərək quraşdırılıb.

Üçüncü mərhələ olan Salka-Axalkalaki 74,1 kilometrdir. Sahədə işlər bütün təsərrüfatlar üzrə aparılır. Sonuncu mərhələ olan Axalkalaki-Türkiyə sərhədi (Kartsaxi) sahəsinin uzunluğu 28 kilometrdir. Bu sahədə də işlər davam edir.

## Hər nəfərə düşən gəlirlər 6 faiz artmışdır

Cari ilin yanvar-avqust aylarında əhalinin hər nəfərinə düşən gəlirlər 2012-ci ilin eyni dövrü ilə müqayisədə 6 faiz artaraq 2376,2 manat və ya orta hesabla ayda 297 manat təşkil etmişdir. Bu dövr ərzində ölkə əhalisi tərəfindən əldə edilmiş 22 milyard manatlıq gəlirin 68,7 faizi son istehlak xərclərinə, 9,1 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının, 1,7 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 20,6 faizi isə yığıma yönəldilmişdir.

# Toxum əkinçinin qızıl fondudur

Elmi nailiyyətlərin istehsalata tətbiqi əkin sahəsindən daha yüksək məhsul istehsal olunması ilə nəticələnir. Təcrübələr nəticəsində müəyyən olunmuşdur ki, yüksək reproduksiyalı toxumlardan səpin aparılmış sahələrdən repreduksiyasız toxumlarla müqayisədə 20—25 faiz artıq məhsul əldə edilir. Təsadüfi deyil ki, «Toxum götür, torpaq axtar», «Toxum əkinçinin qızıl fondudur»—deyib atalar.

Apardığımız araşdırmalar göstərir ki, bəzi hallarda respublikaya kənardan gətirilən, mənşəyi, səpinə yararlığı, sortu, yerli şəraitə uyğunluğu bilinməyən və yaxud da öz istehsalları olan əmtəəlik taxıldan istifadə edərək səpin aparırlar. Bu da son nəticədə taxılın məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Bir məsələni qeyd etmək lazımdır ki, yerli torpaq-iqlim şəraitinə uyğun gəlməyən toxumlarla səpin aparılması yolverilməzdir. Çünki belə sort toxumlarla səpin aparılmış sahələrə yüksək qaydada aqrotexniki xidmət göstərilsə də heç bir nəticə verməyəcək. Son nəticədə isə əkin sahəsinin məhsuldarlığı aşağı olacaqdır. Eyni zamanda xəstəliklərə davamsız sort qarşığı olan əkin sahələrindən əldə olunan məhsuldarlıq aşağı olacaq, məhsulun keyfiyyəti standartlara uyğun gəlməyəcəkdir.

Toxumlar alaq otları və digər qarışıqlardan təmizlənməyibsə, səpindən sonra çıxan alaq otları bitkinin normal inkişafını ləngidəcəkdir. Odur ki, taxılçılığın inkişafında sertifikatlı toxum mühüm əhəmiyyət kəsb edir. Əkin sahələrinin məhsuldarlığını artırmaq və məhsulun keyfiyyətinin yüksəldilməsində hər bir regionun torpaq-iqlim şəraitinə uyğun gələn intensiv tipli sort toxumlarından istifadə edilməsinə xüsusi əhəmiyyət verilməlidir.

Təqdirəlayiq haldır ki, son illər rayonumuzun əkinçiləri yüksək məhsuldar toxumlardan istifadə edilməsinə böyük əhəmiyyət verirlər. Hal-Hazırda toxumçuluqla məşğul olan 3 toxumçuluq təsərrüfatı 441 ton «Cəlilabad-19», «Qarabağ-22» birinci və ikinci yaşda olan arpa toxumu səpin üçün hazırlamışdır. Bundan başqa, Krasnodar Elmi Tədqiqat əkinçilik İnstitundan 15 ton elit arpa, respublikamızın Elmi Tədqiqat İnstitutunun zona təcrübə və stansiyalarından 50 ton elit buğda toxumları alınması nəzərdə tutulub. Fermerlərin və torpaq mülkiyyətçilərinin istehsal etdiyi 3.500 ton yüksək repreduksiyalı buğda toxumu vardır. İndiyədək 1500 ton arpa-buğda toxumu tam təmizlənib səpinə hazırlanmışdır. Toxumun təmizlənib səpinə hazırlanmasında «Gilan» MMC, «Həsrət» fermer təsərrüfatları və özəl toxumçuluq təsərrüfatının rəhbəri Tehran Səddinov xüsusilə fərqlənirlər.Həmin təsərrüfatlar öz istehsalından münasib qiymətə fiziki şəxslərə toxum satmağı da nəzərdə tutublar. Bir sıra taxıl əkini ilə məşğul olan təsərrüfatlar toxum partiyasından götürdükləri nümunələri rayonun Dövlət Toxum Müfəttişliyinin laboratoriyasında analizdən keçirilməsinə başlamış və toxumun səpin keyfiyyətini əks etdirən sertifakt əldə etmişlər. Bu sənəddə toxumların cücərmə qabiliyyəti, təmizliyi, sinfi, toxumun təsərrüfat yararlılığı, xəstəlik və ziyanvericilərə sirayətlənmə dərəcəsi və digər göstərcilər qeyd olunur.

**Rafiq ABDULKƏRİMOV,**
**rayon Dövlət Toxum Müfəttişliyi laboratoriyasının müdiri.**